

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Qəzet 1921-ci ildən çıxır

Sayı: 232 (21.642)

6 dekabr 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Pakistan İslam Respublikasının ticarət naziri Xürrəm Dastgir Xanı qəbul edib.

Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin ölkəmizə səfərlərini məmnunluqla xatırlayan dövlətimizin başçısı hər iki səfərin uğurlu və məhsuldar olduğunu vurğulayaraq, bu səfərlərin ölkələrimiz arasında mövcud qardaşlıq əlaqələrinin gücləndirilməsi baxımından önəmini qeyd edib. Prezident İlham Əliyev qarşılıqlı ticarətin səviyyəsinin inkişaf etdirilməsi, sərmayə qoyuluşu və biznes imkanlarının müəyyənləşdirilməsi üçün ölkələrimizin müvafiq nazirliklərinin praktik səviyyədə görüşlər keçirməsi üçün də yaxşı fürsət yarandığını deyib.

Pakistan İslam Respublikasının ticarət naziri Xürrəm Dastgir Xan deyib: "Baş nazir Məhəmməd Nəvaz Şərif Azərbaycanda ona göstərilən qonaqpərvərliyi yüksək qiymətləndirdi və məndən buna görə minnətdarlığını çatdırmağı xahiş etdi". Pakistanlı nazir Baş nazir Məhəmməd Nəvaz Şərifin ölkəmizə səfərindən dərhal sonra onun tapşırığı ilə Azərbaycana səfər etdiyini və ikitərəfli əlaqələrimizin inkişafı ilə bağlı üzərində işləməli əhəmiyyətli məsələlərin olduğunu deyib.

Görüşdə ölkələrimiz arasında enerji, ticarət əlaqələrinin genişləndirilməsi, kənd təsərrüfatı, əczaçılıq və toxuculuq sənayesi sahələrində əməkdaşlığın önəmi qeyd edilib.



## Heydər Əliyev Muzeyində növbəti açıq dərs



***Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin şagirdlərinin iştirakı ilə "Müstəqil Azərbaycanın qurucusu" mövzusunda açıq dərs keçilib.***

Məktəbin tarix müəllimi Könül Ramazanova bildirib ki, ulu öndər Heydər Əliyev xalqımız qarşısında misilsiz xidmətləri ilə bu gün hər birimizin qəlbində yaşayır. Dahi rəhbərin vətənimizin suverenliyi, ölkəmizin düşdüyü bəlalardan xilas olunması, Azərbaycanın inkişafı naminə mübarizədə əvəzolunmaz xidmətləri Onu hələ sağlığında xalqımızın ümummilli liderinə çevirib. Heyrətamiz idarəçilik istedadına, mətin iradəyə və böyük əzmkarlığa malik ulu öndərimiz Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizi tənəzzül burulğanından çıxararaq respublikamızı qısa vaxt ərzində qabaqcıl və nüfuzlu ölkə səviyyəsinə yüksəldə bilib. Ölkəmizin keçmiş sovetlər dövründə müttəfiq respublikalar içərisində qabaqcıl mövqeyə yüksəlməsi, daha sonra yenidən müstəqil dövlət kimi dünyanın geosiyasi xəritəsində yer alması, güclənməsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Qeyd olunub ki, xalqımızın böyük oğlu Heydər Əliyev XX əsr Azərbaycan tarixində təkcə milli müstəqillik ideyasını praktik olaraq gerçəkləşdirmiş lider kimi deyil, həm də yaratdığı dövlətin möhkəmliyini, dayanıqlılığını təmin edən, onun hərtərəfli inkişafı üçün iqtisadi, siyasi, hüquqi zəmin hazırlayan böyük strateq, müdrik rəhbər kimi xalqımızın qəlbində yaşayır. Müdrətli siyasətçinin əzmi və iradəsi ilə Azərbaycan dövləti 1990-1993-cü illərin ağır hadisələrindən keçib gələrək parçalanıb məhv olmaq təhlükəsindən qurtula bilib.

Vurğulanıb ki, 1993-cü ilin iyunundan etibarən ölkədə ictimai-siyasi sabitliyi təmin edən böyük strateq özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında həm də Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirib, bu sahədə mövcud problemlərin həlli yollarını göstərib. Ümummilli liderimizin 1993-cü ilin iyununda siyasi hakimiyyətə yenidən qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik xalqımızın ən qiymətli mənəvi-ideoloji sərvətinə çevrilib. Bugünkü güclü, qüdrətli Azərbaycanı O, öz əlləri ilə qurub-yaradıb, inkişaf etdirib, bütün dünyaya tanıdıb. Ulu öndər ölkəmizin siyasi, sosial-iqtisadi inkişaf konsepsiyalarını işləyib hazırlayıb və reallaşdırılmasını təmin edib. Ona görə də xalqımız ümummilli lideri ilə fəxr edir, qürur duyur, Onun ideyalarını həyata keçirməyə çalışır. ***"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət olub"***, – deyən ulu öndər Heydər Əliyevin dövlətçiliyimizin ən ağır günlərində göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyir. Dahi şəxsiyyətin ölkəmizdə nail olduğu ictimai-siyasi sabitliyin nəticəsidir ki, dünyanın nüfuzlu şirkətlərinin Azərbaycana olan marağı daha da artıb. Ulu öndər xalqımıza zəngin maddi və mənəvi dəyərlər, siyasi-iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş müstəqil Azərbaycan dövlətini miras qoyub. Bütün bunlara görə ümummilli liderimiz Heydər Əliyev əbədiyaşarlıq qazanıb.

Sonra şagirdlər "Ulu öndər, ulu torpaq" adlı filmə baxıblar, muzeyin ekspozisiyası ilə tanış olublar.

***Tədbiri giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb.***

## AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun illik hesabatı olub



AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli institutun il ərzində gördüyü işlərdən və qazanılmış uğurlardan danışıb. Bildirib ki, 2016-cı ildə institutda "Naxçıvan tarixinin tədqiqi", "Naxçıvanın ictimai-siyasi və sosial-iqtisadi tarixinin öyrənilməsi", "Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyətinin tədqiqi" istiqamətlərini əhatə edən 6 iş üzrə 14 mərhələdə elmi-tədqiqat işləri aparılıb.

Hesabat ilində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ərazisinin qədim (ən qədim zamanlardan e.ə IV minillik) və orta əsrlər dövrünün tarixinin, Kəngərli tayfalarının mənşəyinin, böyük güclərin Cənubi Qafqaz siyasəti və Naxçıvan amilinin, bölgənin XX əsr tarixinin bir sıra problemlərinin araşdırılması, Naxçıvanın arxeologiyası, etnoqrafiyası və epiqrafikasına dair tədqiqatlar da görülən işlər sırasındadır.

Vurğulanıb ki, iş planına uyğun olaraq "Naxçıvan şəhərinin epiqrafik abidələri", "Xalçalar üzərindəki təsvirlər (XVIII-XIX əsrlər)", "Naxçıvanın XII əsr tarixi müasir tarixşünaslıqda", "Naxçıvanın yeni və ən yeni dövr tarixinin tədqiqi", "Naxçıvanın etnoqrafik tədqiqi", "Cənubi Qafqazın təhlükəsizlik problemləri: etnik-milli münaqişələrin ortaya çıxmasında geosiyasi maraqlar və bu maraqlarda Naxçıvanın yeri" işləri üzrə aparılan araşdırmalar da müəyyən elmi nəticələri ortaya qoyub.

Diqqətə çatdırılıb ki, hesabat ilində institut əməkdaşlarının 7 monoqrafiyası (1-i xaricdə), 4 kitabı, 164 elmi əsəri (33-ü xaricdə), 78 qəzet məqaləsi nəşr olunub. Eyni zamanda elmi-tədqiqat işləri ilə bağlı 10 seminar və elmi şuranın 10 iclası keçirilib. Əməkdaşlar Bakı şəhərindəki bir sıra ali məktəblər, AMEA-nın Arxeologiya və Etnoqrafiya, Tarix institutları, ABŞ-ın və Fransanın elm və təhsil müəssisələri, həmçinin Rusiya, İran, Türkiyə və Gürcüstan alimləri ilə sıx elmi əlaqələrdə olub, dissertasiyalara, monoqrafiyalara, kitablara rəy verib, redaktorluq və opponentlik ediblər. Bundan başqa, əməkdaşların hesabat dövründə respublika və beynəlxalq səviyyəli konfrans və simpoziumlarda, həmçinin muxtar respublika miqyasında keçirilən elmi, sosial-siyasi və mədəni tədbirlərdə yaxından iştirak etmələri təmin olunub.

Tədbirdə Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov çıxış edərək institut əməkdaşlarına gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Tədbirin sonunda iştirakçılar Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi nəşrlərindən ibarət sərgi ilə tanış olublar.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

## Naxçıvanda yeni istirahət və əyləncə mərkəzləri tikilir





***Naxçıvan şəhərində, Naxçıvançayın kənarında əhalinin asudə vaxtının səmərəli təşkilinə töhfə verəcək iki müasir istirahət və əyləncə mərkəzinin tikintisi aparılır.***

Naxçıvan şəhərindən Beynəlxalq Hava Limanına aparan yolun sağ tərəfində inşa edilən istirahət və əyləncə mərkəzi zirzəmi ilə birlikdə dörd mərtəbədən ibarət olacaq.

"Gəmiqaya Holdinq"in adıçəkilən obyekt üzrə iş icraçısı Akif Quliyevin bildirdiyinə görə, binanın zirzəmisində avtomobillər üçün dayanacaq, bərbər, qadın gözəllik salonu, qazanxana və xidməti otaqlar fəaliyyət göstərəcək. Qalan mərtəbələr istirahət otaqları, kafelər və digər əyləncə obyektləri üçün nəzərdə tutulub. Mərkəzə yaxın ərazidə idman zalı, üzgüçülük hovuzu, tədbirlər zalı, atış zalı qonaqların ixtiyarına veriləcək. İstirahət və əyləncə mərkəzinin yerləşdiyi ərazi abadlaşdırılacaq, müasir işıqlandırma sistemi qurulacaq, yaşıllaşdırma tədbirləri həyata keçiriləcək. Hazırda mərkəzin binasının son mərtəbəsində qəlib-beton işləri aparılır, əraziyə kilid daş düzülür. Dövrün və şəhərin xarakterik xüsusiyyətlərinin əks olunduğu, tikintisində Şərq memarlığı elementlərinə, xüsusilə Naxçıvan memarlıq məktəbinə aid üslubа geniş yer verilən, memar Cəmil Quliyevin layihəsi əsasında inşa olunan bina tamamlandıqdan sonra bu məkan şəhərin ən görməli yerlərindən birinə çevriləcək.

Beynəlxalq Hava Limanına aparan yolun sol tərəfində tikintisi aparılan daha bir obyekt də əhalinin asudə vaxtının səmərəli keçirilməsi üçün nəzərdə tutulub. Obyektdə metal konstruksiyaların qurulması işi başa çatdırılıb. Hazırda "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivi tərəfindən fasadın və interyerin üzlənməsi işləri aparılır. Avanqard üslubda, qeyri-adi formada inşa edilən binanın fasadının üzlənməsində yüksəkkeyfiyyətli şüşə lövhələrdən istifadə ediləcək.

**Xəbərlər şöbəsi**

*Ulu öndərimiz Heydər Əliyevin möhtəşəm ömür yolu və çoxşaxəli, misilsiz fəaliyyəti Vətənə və xalqa fədakar xidmətin ideal nümunəsi olduğu kimi, nəzəri irsi də neçə-neçə nəsillərin yolunu işıqlandırmağa, yüz illər boyu dəyərini, məna və əhəmiyyətini saxlamağa qadir olan mükəmməl təlimdir. Başqa sözlə desək, dahi rəhbərin zəngin, dolğun nəzəri irsi ilə qlobal fəaliyyəti bir-birini üzvi şəkildə tamamlayır.*

**Azərbaycanın özü qədər əbədi**

# Azərbaycanda multikultural dəyərlərin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır

Ümummilli liderimizin fəaliyyətində və təlimində multikultural dəyərlərə münasibət, müxtəlif xalqların mədəniyyətinə, dini etiqadına ehtiramla yanaşmaq, Şərq və Qərb sivilizasiyalarının qarşılıqlı əlaqələrinə obyektiv baxış da özünəməxsus yer tutur. ***“Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür”***, – deyən dahi rəhbər həm də məxsusi vurğulayırdı ki, ölkədə müxtəlif xalqların dinc birgəyaşayışı, hərtərəfli inkişafı, o cümlədən mədəni yüksəlişi, bütövlükdə, respublikanın tərəqqisi deməkdir. Ayrı-ayrı xalqların bir ölkədə rahat, azad yaşayıb öz mədəniyyətlərini sərbəst şəkildə inkişaf etdirməsi mahiyyət etibarilə həm də ölkənin uğurudur, eyni zamanda bəşər sivilizasiyasını da zənginləşdirir. Ulu öndər bunları nəzərdə tutaraq deyirdi: ***“Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri... ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir”***.

Ümummilli liderimiz respublikamızda yaşayan hər bir xalqın tarixinə, ədəbiyyatına, mədəniyyətinə, adət-ənənələrinə, dilinə, dini etiqadına həmişə hörmətlə yanaşmış, qarşılıqlı anlaşmaya, multikultural dəyərlərin qorunub saxlanılmasına böyük önəm vermişdir. Müdrik siyasi xadim, mədəniyyətin kamil bilicisi olan ulu öndərin aşağıdakı fikirləri də respublikamızda yaşayan hər bir xalqın milli varlığına ehtiramını, diqqət və qayğısını təcəssüm etdirir: ***“İstər böyük, istər kiçik xalq olsun, fərqi yoxdur, onların özünəməxsus adət-ənənələri, folkloru, dilinin müəyyən ayrılığı yaşayıb və yaşamalıdır”***. Azərbaycanda yaşayan azsaylı xalqların maddi və mənəvi mədəniyyətlərinin inkişafının hərtərəfli şəkildə təmin edilməsi, onların mədəniyyət mərkəzlərinin fəaliyyət göstərməsi, ədəbi-mədəni irslərinin qorunub yaşadılması da ulu öndərin diqqət mərkəzində olmuşdur.

***“Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir”***, – deyən müdrik rəhbərimiz respublikamızda yaşayan hər bir xalqın, hər bir vətəndaşın hüquq və azadlıqlarının qorunması işinə də ardıcıl diqqət və qayğı göstərmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyev dəfələrlə vurğulamışdır ki: ***“Azərbaycan çoxmillətli dövlətdir. Onun bütün vətəndaşları milli mənsubiyyətindən, dini etiqadından və siyasi əqidələrindən asılı olmayaraq bərabər hüquqlara malikdirlər”***. Bu hüquqların etibarlı qorunması üçün ulu öndər ən yüksək səviyyədə və hərtərəfli şəkildə tədbirlər həyata keçirmişdir. Məhz ümummilli liderimizin rəhbərliyi ilə hazırlanan və 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsi ilə mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarına hörmət təmin edilmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyev təkcə respublikamızda yaşayan xalqların deyil, bütün dünya xalqlarının mədəniyyətinə, dilinə, dini etiqadına, ümumən bəşər sivilizasiyasına ehtiramla yanaşmışdır. Dahi rəhbər Şərq və Qərb sivilizasiyalarını dəyərləndirərkən mədəniyyətlərin birləşdirici funksiyasına, qarşılıqlı əlaqələrə ciddi rəvac verməsinə də xüsusi diqqət yetirərək demişdir: ***“Ölkələr arasında dostluq münasibətlərinin möhkəmlənməsində mədəniyyət və elm sahəsində əlaqələrin təsiri böyükdür”***. Dahi rəhbər bu məsələlərdən danışarkən Şərq, o cümlədən Azərbaycan ədəbiyyatı və mədəniyyətinin bəşər sivilizasiyasında tutduğu böyük mövqeni, Qərbə göstərdiyi ciddi təsiri də ayrıca qiymətləndirmişdir: ***“Azərbaycan xalqının XII əsrdə intibah dövrünü keçirən ədəbiyyatı Xaqaninin və Nizaminin timsalında, sonrakı əsrlərdə isə Nəsiminin, Füzulinin, Vaqifin, Mirzə Fətəli Axundovun, Sabirin timsalında dünya şöhrəti qazanmış, Yaxın Şərq və Qərb ölkələrində ədəbi prosesin, estetik fikrin inkişafına nəcib təsir göstərmiş, məsələn, Avropa ədəbiyyatını yeni ideyalar, mövzular və süjetlərlə zənginləşdirmişdir. Ulu söz ustaları bizə böyük estetik sərvətlər xəzinəsi, humanizm və xalqlar dostluğu kimi nəcib ideyaların çox zəngin bir aləmini qoyub getmişlər”***.

Xalqımızın böyük oğlu Heydər Əliyev sivilizasiyaların əlaqəsinə birtərəfli proses kimi baxmamış, Şərq, o cümlədən Azərbaycan ədəbiyyatı və mədəniyyətinin Qərbə böyük təsir göstərdiyini faktlar əsasında qiymətləndirməklə yanaşı, öz növbəsində, Şərqdə Qərb sivilizasiyası ənənələrindən istifadəyə də yer verildiyini nəzərə çatdırmış, sivilizasiyaların qarşılıqlı əlaqəsini mədəniyyətlərin zənginləşməsində mühüm vasitə saymışdır: ***“Eyni zamanda Qərb də Şərqin və xüsusən türkdilli xalqların, müsəlman Şərqinin yaratdığı böyük, tarixi əsərlərdən istifadə etmişdir. Şərqin və Qərbin mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin sintezi həm Qərbə, həm də Şərqə çox böyük müsbət nəticələr gətirmişdir”***.

***“Azərbaycan ən qədim zamanlardan dinlərin, dillərin və mədəniyyətlərin təmas və ünsiyyət yeri olmuşdur”***, – deyən ulu öndərimiz ölkəmizin coğrafi mövqeyinin də sivilizasiyaların əlaqəsi baxımından əlverişli olduğunu ayrıca vurğulamışdır. Dahi rəhbər qeyd edirdi ki, Azərbaycan coğrafi-siyasi mövqeyinə görə həmişə sivilizasiyaların qovuşuğunda olmuş və mədəniyyətimiz də bu aspektdə inkişaf edərək böyük uğurlar qazanmışdır. XIX əsrdən etibarən Şərq və Qərb mədəni əlaqələrinin yeni mərhələyə qədəm qoyduğunu, sivilizasiya əlaqələrinin yeni mahiyyət kəsb etdiyini, Azərbaycan mədəniyyətinin Qərbə inteqrasiyasını ümummilli liderimiz belə qiymətləndirmişdir: ***“Azərbaycan Asiya ilə Avropanın birləşdiyi, qovuşduğu bir ərazidə yerləşən, amma Avropaya daxil olan bir ölkədir. Ancaq Azərbaycan öz kökünə, dini mənsubiyyətinə, ənənələrinə görə Şərq aləminə, İslam, Türk dünyasına daxil olubdur. Bu qəbildən olan xalqlar, millətlər içərisində Azərbaycan xalqı XIX-XX əsrlərdə öz milli köklərindən ayrılmayaraq öz ədəbiyyatını, mədəniyyətini dünyanın inkişaf etmiş Qərb mədəniyyəti, ədəbiyyatı ilə birləşdirə bilibdir. Bizim milli ədəbiyyatımızı, mədəniyyətimizi Qərb mədəniyyəti, ədəbiyyatı ilə birləşdirən, onun sintezini yaradan insanlar çox uzaqgörən, müdrik insanlar olublar”***.

Göründüyü kimi, ümummilli liderimiz Qərb sivilizasiyasının qabaqcıl ənənələrini mənimsəmək, ondan yaradıcılıqla istifadə etmək barədə dəyərli fikirlər söyləmiş, bu sintez prosesində milli köklərdən ayrılmamağı vacib şərt saymışdır. Yəni istənilən bir kənar təsir, ədəbi-mədəni yenilik nə qədər faydalı və zəruri olsa da, onun mənimsənilməsi milli köklərdən ayrılmaq hesabına baş verməməlidir. Yəni hər bir xalq öz milli-mənəvi dəyərlərini qorumalı, yaşatmalıdır.

Hazırda ölkəmizdə ümummilli lider Heydər Əliyevin siyasi kursu bütün istiqamətlərdə uğurla davam etdirilir, o cümlədən ədəbi-mədəni inkişafın daha da yüksəlişinin təmin olunması üçün sistemli, hərtərəfli tədbirlər görülür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik və məqsədyönlü fəaliyyəti cəmiyyət həyatının digər sahələrində olduğu kimi, ədəbiyyat, incəsənət və mədəniyyətə münasibətdə də özünün parlaq nəticələrini aşkar şəkildə göstərir. Sivilizasiyaların dialoqu, qarşılıqlı əlaqəsi də diqqət mərkəzindədir. Respublikamızda multikulturalizmin dövlət siyasəti səviyyəsində həyata keçirilməsi də bu baxımdan mühüm fakt olub ulu öndərin parlaq ideyaları işığında gerçəkləşmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi ilə respublikamız 2009-cu ildə “Mədəni özünüifadə formalarının müxtəlifliyinin qorunması və təşviqinə dair” UNESCO Konvensiyasına qoşulmuşdur. Ölkə rəhbərinin təşəbbüsü və yüksək himayəsi ilə 2011-ci ildən başlayaraq Bakıda beynəlxalq humanitar forumların keçirilməsi də böyük əhəmiyyət daşıyır. Multikulturalizmi ***“alternativi olmayan, gələcək inkişaf üçün ən məqbul variant”*** kimi dəyərləndirən Prezident İlham Əliyev 28 fevral 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri xidmətini yaratmışdır. Cənab Prezidentin multikulturalizm siyasətinin daha bir mühüm ifadəsi Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasına dair 15 may 2014-cü il tarixdə imzaladığı Fərmandır. Həmin mərkəzin yaradılmasında başlıca məqsəd ölkəmizdə əsrlər boyu formalaşmış tolerantlığın, etnik-mədəni, dini müxtəlifliyin qorunmasını və daha da möhkəmlənməsini təmin etmək, həmçinin Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq, mövcud multikultural modellərin tədqiq və təbliğ etməkdir. Ölkə Prezidentinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə 2016-cı ilin ölkəmizdə “Multikulturalizm ili” elan edilməsi və təsdiqlənmiş Tədbirlər Planına uyğun olaraq sistemli tədbirlərin uğurla həyata keçirilməsi də bu baxımdan xüsusi əhəmiyyətə malikdir.

***“Multikulturalizm bizim adət-ənənəmizdir. Multikulturalizm dövlət siyasəti və ictimai sifarişdir. Multikulturalizm bizim həyat tərzimizdir”***, – deyən cənab İlham Əliyevin müdrik siyasəti, ulu öndər Heydər Əliyev ideyalarını yüksək səviyyədə davam etdirməsi sayəsində müstəqil Azərbaycan bu sahədə də qazandığı nailiyyətlərlə dünya dövlətlərinə nümunədir.

***Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında bütün digər sahələrlə yanaşı, həmin istiqamətdə də mühüm işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun möhtəşəm, konseptual fəaliyyəti sayəsində qədim Naxçıvan son iyirmi ildən artıq müddət ərzində neçə-neçə qərinəyə sığmayan hərtərəfli inkişaf yolu keçərək əsl intibaha qovuşmuş, o cümlədən mədəniyyətin yeni, əsaslı yüksəlişinə nail olmuşdur. Bu gün Naxçıvan Şərq və Qərb sivilizasiyalarının üzvi sintezini, klassika ilə müasirliyin uğurlu vəhdətini özündə ən mükəmməl şəkildə təcəssüm etdirir.***

**Hüseyn HƏŞİMLİ**
***filologiya üzrə elmlər doktoru, Əməkdar elm xadimi***

# Müstəqil Azərbaycanın memarı

Hər zaman, tarixin bütün dövrlərində xalqlar üçün ən müqəddəs dəyərlərdən biri də azadlıq, hürriyyət, müstəqillik olub. Azərbaycan xalqı da öz azadlığı, müstəqilliyi uğrunda əsrlərlə mübarizə aparıb. Bu yolda çox qanlar axıdılıb, şəhidlər verilib. Lakin itkilər, məhrumiyyətlər xalqımızın azad yaşamaq istəyini boğa bilməyib. Tarixin özü qədər yaşı olan böyük və ulu millətimiz sübut edib ki, o, gec-tez müstəqil olacaq, azad yaşamaq haqqını heç kəsə güzəştə getməyəcək.

Elə ötən əsrin əvvəllərində də xalqımız bir daha bütün dünyaya öz azad, müstəqil yaşamaq arzusunu nümayiş etdirdi. Şərqdə ilk demokratik respublika quruldu. Bununla xalqımız dünyaya bir daha göstərdi ki, bütün tərəqqi etmiş xalqlar sırasında onun da yeri, bu xalqın azadlıq uğrunda canından keçməyə hazır olan minlərlə oğlu, qızı var.

Yeni qurulan cümhuriyyət uzun müddət yaşaya bilmədi, imperialist qüvvələr tərəfindən süquta uğradıldı. Azadlıq məfkurəsindən doğulan üçrəngli bayrağımızın yerini yad ideyaların, yad düşüncələrin məhsulu olan oraqlı-çəkicli bayraq aldı. Ancaq bu xalqın ürəyində bayrağımızın bir daha göylərə ucalacağı ilə bağlı közərən ümid qığılcımları sönmədi, əksinə, alovlandı. Nə az, nə çox, 70 il sonra axıdılan saysız-hesabsız qanlar hesabına qurulan imperiyanı dağılmağa məhkum edən də Sovetlər Birliyi adlandırılan xalqlar həbsxanasından ucalan alovlar oldu.

Dövlətimizin qurulmasının başlanmasından, müstəqilliyimizin bərpasından əsrin dörddə biri qədər zaman keçir. Biz artıq 25 ildir ki, müstəqilik. Ötən illər ərzində müstəqilliyimizin yenidən itirilməsi təhlükəsi bir neçə dəfə yaranıb. Ancaq dahi rəhbərimiz Heydər Əliyevin uzaqgörənliyi sayəsində dövlətimiz gündən-günə qüdrətlənib. Güclü dövlətimiz azadlığımızın, müstəqilliyimizin əbədiliyinin təminatına çevrilib.

Ərənlər yurdu Azərbaycanın müstəqilliyi ölkəmizin dünya dövlətləri arasında söz sahibi olmasına imkan yaradıb. Yer üzündə çox sayda xalq olsa da, onlardan azına dövlət qurmaq, müstəqil yaşamaq nəsib olub. Bu baxımdan müstəqillik xalqımızın payına düşən ən əvəzsiz nemətdir.

Rus imperiyasından mahiyyət etibarilə heç də fərqlənməyən sovetlər dövrünə qısa bir nəzər salsaq görərik ki, o dövrdə də Azərbaycan xalqının böyük uğurları, dünya elminə töhfələr vermiş insanları, nailiyyətləri olub. Ancaq bütün bu nailiyyətlərdən heç biri bizim adımıza yazılmayıb. Müstəqilliyimiz bizə məhrumiyyətlərdən qurtulmaq imkanı verib, bizə güclü ordu, qüdrətli dövlət bəxş edib, bir millət olaraq ölkə üçün taleyüklü məsələlərin həllində vahid fikir ortaya qoymaq imkanı yaradıb.

Ən mühüm nailiyyətlərimizdən biri budur ki, yüksək zirvələrimizdə üçrəngli bayrağımız dalğalanır. Naxçıvan Muxtar Respublikası isə ölkəmizin müstəqilliyinin nə qədər önəmə malik olmasının göstəricisi, dövlətimin qüdrətinin aynasıdır. Müstəqil Azərbaycanın çiçəklənən diyarı olan Naxçıvan ötən 25 ildə inanılmaz inkişaf yolu keçib. Qədim diyarımız indi nəinki Azərbaycanın, hətta bütün regionun mədəniyyət, incəsənət, sənaye mərkəzi, ölkəmizin döyünən ürəyi, xalqımızın qürur duyduğu bir məkandır. İndi bu qədim diyarın hansı guşəsinə getsək, bizi qarşılayan zirvələrdə dalğalanan üçrəngli Azərbaycan bayrağı, abad, gözəl şəhər və kəndlər, müasir binalar, yollar, hər qarışı əkilən tarlalar, insan zəhmətinin məhsulu olan bağ-bağçalar olacaq.

Layiq olduğu xoş günlərə qovuşan xalqımız müstəqilliyin qədrini-qiymətini yaxşı bilir, onu göz bəbəyi kimi qoruyur, öz işi, əməli ilə bu müstəqilliyə töhfə verməyə çalışır. Xalq onu da yaxşı bilir ki, artıq heç bir xarici təsir əsrin əvvəllərində olduğu kimi müstəqilliyimizi təhdid edə bilməz. Güclü, qüdrətli Azərbaycan Ordusu sərhədlərimizin, xalqımızın, dövlətimizin və dövlətçiliyimizin keşiyindədir.

İndi “Müstəqilliyimiz bizə nə verdi?” sualının cavabında hər bir Azərbaycan vətəndaşı yüzlərlə sahədən misallar gətirə bilər. Məncə, indi bizi düşündürən əsas suallardan biri “Biz müstəqil Azərbaycana nə vermişik?” olmalıdır. Bu gün biz milli iradəyə malik bir xalq olduğumuzu, azad yaşamağa layiqliyimizi bir daha nümayiş etdirmək üçün vətənpərvərlik göstərməli, müstəqilliyimizə yeni töhfələr verməli, yeni dəyərlər qazandırmalıyıq. Müstəqillik bizə azad, firavan ölkədə yaşamaq və işləmək imkanı verib, bizə dünyanın istənilən ölkəsində fəxrlə “Mən azad bir ölkənin, Odlar yurdu Azərbaycanın vətəndaşıyam!” demək imkanı yaradıb.

Yurdsevər xalqımızı bütün çətin sınaqlardan çıxaran keyfiyyətlərdən biri də dar ayaqda uzaqgörən olması, müdrik qərar qəbul etməsidir. Əgər belə olmasaydı, xalqımız ən çətin, ağır dönəmdə nəinki yenicə bərpa edilmiş müstəqilliyin, hətta ölkənin özünün müqəddəratının sual altına düşdüyü bir vaxtda məhz öz tarixi müdrikliyinə söykənməz və son dərəcə düzgün qərar qəbul edərək ümummilli lider Heydər Əliyevi respublika rəhbərliyinə dəvət etməzdi. Məhz bu addımla xalqımız milli qurtuluşa, dövlət müstəqilliyinin xilasına nail oldu. Bundan sonra Azərbaycan xoşbəxt gələcəyə aparan davamlı inkişaf yoluna qədəm qoydu.

Etibar və inam xalqımızı 1993-cü ildə böyük bəlalardan xilas etdi. Artıq dövlət müstəqilliyinin bərpasının 25-ci ilini yaşayan Azərbaycanın bu dövrdə müstəqilliyinin möhkəmlənməsi, beynəlxalq nüfuzunun artması, respublika iqtisadiyyatının dayanıqlı inkişafının təmin olunması, xalqın rifah halının mütəmadi olaraq yüksəlməsi və digər tarixi nailiyyətlər silsiləsi məhz ümummilli lider Heydər Əliyevin xalqın çağırışı ilə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışının bəhrələridir.

Vətən üçün bütün fədakarlıqlara hazır olan milyonlarla Azərbaycan vətəndaşı, ölkəmizdən kənarda yaşayan bu millətin nümayəndələri üçün müstəqil Azərbaycan bir istinadgah, ümid yeri, məbədgahdır. Tanrıdan umacağımız isə bu azadlığın, hürriyyətin əbədiyyətə qədər qorunmasıdır. Nə qədər ki ulu öndər Heydər Əliyevin yolu ölkəmizdə davam etdirilir, güclü, qüdrətli Azərbaycan dövləti də daim var olacaq, daha da inkişaf edəcək, qüdrətlənəcəkdir.

**Səbuhi HÜSEYNOV**

***Azərbaycanda rabitə və informasiya texnologiyalarının inkişafının əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən ötən əsrin 70-ci illərində qoyulmuşdur. Ulu öndərin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra isə rabitənin inkişafı müasir dünya təcrübəsi nəzərə alınmaqla davam etdirilmiş, bu sahə üzrə islahatlar həyata keçirilmiş, zəngin qanunvericilik bazası yaradılmış, təcrübəli mütəxəssislər yetişdirilmişdir. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də rabitə və yeni texnologiyaların inkişafını diqqətdə saxlayır. Qəbul olunan dövlət proqramları və həyata keçirilən mühüm islahatlar nəticəsində Azərbaycan ümumdünya elektron məkanına sürətlə inteqrasiya edir.***

# Naxçıvanda rabitə və yeni texnologiyalar sahəsi yeni inkişaf mərhələsindədir

Naxçıvan Muxtar Respublikasında da rabitə və yeni texnologiyaların inkişafı daim diqqət mərkəzində saxlanılır, iqtisadiyyatın bütün sahələrində yeni texnologiyalar tətbiq olunur. Yeni optik kabel magistrallarının tikintisi iritutumlu və keyfiyyətli rabitə əlaqəsinin həyata keçirilməsinə imkan verir. Belə ki, ötən müddət ərzində muxtar respublikanın telekommunikasiya şəbəkəsi beynəlxalq Trans-Asiya-Avropa fiber-optik kabel magistralına qoşulmuş, Naxçıvanın ilk dəfə tranzit telekommunikasiya imkanları yaradılmışdır. 2013-2014-cü illərdə muxtar respublikanın telekommunikasiya əlaqələrinin alternativliyinin təmin edilməsi üçün ümumi uzunluğu 242 kilometr olan Sədərək-Ordubad arası fiber-optik kabel magistral xəttinin tikintisi başa çatdırılmışdır. Hazırda muxtar respublikada fiber-optik kabel xətlərinin ümumi uzunluğu 1500 kilometrə yaxındır. Bu da muxtar respublikada rabitə əlaqələrinin tam kəsintisiz həyata keçirilməsində, elektron hökumət, genişzolaqlı internet, 4-cü nəsil xidmətlərin və digər informasiya-kommunikasiya texnologiyaları layihələrinin icrasında əvəzsiz rola malikdir. Optik şəbəkənin genişləndirilməsi evlərə də optik kabelin çəkilməsinə imkan vermiş, “Evədək optika” layihəsinin icrasına başlanmışdır.

İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin maddi-texniki bazası daha da möhkəmləndirilmiş, muxtar respublikanın internet resurslarının genişlənməsi ilə əlaqədar əlavə server avadanlıqları və irihəcmli məlumatların qəbulu və paylanması üçün şəbəkə avadanlıqları alınmışdır. Həmçinin İP ünvanların çatışmazlığı aradan qaldırılmış, Türkiyə Respublikasının “Türk Telekom” şirkəti ilə əməkdaşlıq protokolu imzalanmış, Türkiyə istiqamətində əlavə fiber-optik kabel xətti çəkilmiş və muxtar respublikaya daxil olan internet kanalının həcmi artırılmışdır. Hazırda muxtar respublikanın ərazisinin 98 faizində genişzolaqlı, 99 faizində isə mobil internet xidmətləri göstərilir.

“Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanının icrası ilə əlaqədar “Elektron hökumət” portalı üzərindən rabitə və internet xidmətləri, elektrik enerjisi, qaz və sudan istifadə haqlarının onlayn rejimdə ödənilməsi təşkil edilmiş, istifadəçilərin portalda qeydiyyatdan keçməsi avtomatlaşdırılmış və portalın təhlükəsizliyi ilə əlaqədar tədbirlər görülmüşdür. “Bir pəncərə” prinsipi əsasında dövlət orqanlarının xidmətləri portala inteqrasiya edilmişdir. Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən 80-dən artıq dövlət təşkilatına və 12 idman federasiyasına elektron poçt ünvanları və domen adları verilmiş, həmin təşkilatların internet səhifələri hazırlanaraq qlobal şəbəkədə yerləşdirilmişdir. “Elektron hökumət” portalında mütəmadi olaraq müraciət edilən dövlət orqanlarının saytlarında elektron müraciət səhifələri yenilənmiş, müraciətlərin və cavablandırılan məktubların elektron arxiv sistemi yaradılmışdır. Bundan əlavə, bu ilin əvvəlində Naxçıvan Muxtar Respublikasında Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi sistemləri istifadəyə verilmişdir. Bunun üçün idarələr arasında qapalı şəbəkə qurulmuş, mərkəzi server avadanlıqları alınmış və müvafiq proqram təminatı hazırlanmış, 80 təşkilatın sistemə qoşulması təmin edilmişdir.



*Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyinin binası*



*Babək Rayon Rabitə İdarəsinin binası*

Muxtar respublikada elektron təhsil infrastrukturunun yaradılması və təhsildə yeni texnologiyaların tətbiqi diqqət mərkəzində saxlanılır. Son illər bu istiqamətdə işlər daha da genişləndirilmiş, əsaslı təmir edilən və yeni istifadəyə verilən təhsil müəssisələrində kompüter dəstləri quraşdırılaraq internetə qoşulmuşdur. Həmçinin təhsil müəssisələri arasında interaktiv əlaqənin təmin edilməsi üçün distant təhsil sistemi yaradılmış, internet üzərindən interaktiv dərslərin keçilməsi üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin saytında elektron təhsil xidməti istifadəyə verilmiş, orta ixtisas və ümumtəhsil məktəblərinin iştirakı ilə distant dərslərin keçilməsinə başlanmışdır. Hazırda muxtar respublika üzrə 236 təhsil müəssisəsi və 16 muzey distant təhsil sisteminə qoşulmuşdur.

“Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncama uyğun olaraq və “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın icrası istiqamətində Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi yaradılmışdır. Bundan əlavə, burada elektron kitabxana və fiziki məhdud imkanlılar üçün “258” telefon xidməti üzərindən fəaliyyət göstərən audio kitabxana yaradılmışdır.

Muxtar respublikada rabitə sahəsində gedən sürətli inkişaf, fiber-optik kabel xətlərinin çəkilməsi, yüksəksürətli kompüter şəbəkəsinin yaradılması poçt sahəsində də xidmətlərin müasir tələblərə uyğun qurulmasına şərait yaradır. Hazırda “Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti bir mərkəzi, yeddi filial və 160 poçt bölməsi ilə muxtar respublikamıza müasir poçt xidmətləri təqdim edir. Poçt məntəqələrində ənənəvi poçt xidmətləri ilə yanaşı, bütün növ xidmət haqlarının yığılması da təmin edilmişdir. Hazırda muxtar respublikada, ümumilikdə, 142 poçt məntəqəsi avtomatlaşdırılmış, onlara 153 ədəd POS-terminal qurulmuşdur. “Naxçıvanpoçt” MMC-nin kompüter şəbəkəsinin Mərkəzi Bankın Hökumət Ödəniş Portalına qoşulmasından sonra bu sistemə daxil olmuş bütün bank-maliyyə sektorunun və digər qurumların ödənişlərinin poçt məntəqələrində yığılması həyata keçirilir. Naxçıvan şəhərində qaz və elektrik sayğaclarının smartkarttipli sayğaclarla dəyişdirilməsi ilə poçt bölmələrində həmin kartların yüklənməsi işinin təşkili üçün Naxçıvan Şəhər Rabitə İdarəsində server qurulmuş, Naxçıvan şəhərində 10 poçt bölməsi yeni kompüter və kart oxuyucu ilə təmin edilmişdir.

Texnologiyanın inkişaf tempi elektron imzadan istifadəyə tələbatı da artırmışdır. Bu tələbatı ödəmək məqsədilə “Elektron İmzanın Sertifikat Xidməti Mərkəzi” yaradılmış, “Naxçıvanpoçt” MMC-nin rayon filiallarında elektron imza kartının verilməsinə başlanmışdır.

2016-cı ilin ən əlamətdar hadisəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə muxtar respublikada dördüncü nəsil mobil rabitə şəbəkəsinin istifadəyə verilməsi olmuşdur. Mobil rabitə şəbəkəsinin 98 baza stansiyasının hər biri ilə mərkəzi idarəetmə sistemi arasında fiber-optik kabel xətləri çəkilmiş və saniyədə 1 gigabit informasiya daşıya bilən avadanlıqlar qurulmuşdur. 4-cü nəsil mobil rabitə sistemi məlumatların alınması və ötürülməsi üçün özündən əvvəlki sistemlərlə müqayisədə daha yüksəksürətli və genişzolaqlı şəbəkələrə çıxış imkanına malikdir. Ali Məclisin Sədri mobil rabitə şəbəkəsinin əhəmiyyətini vurğulayaraq demişdir: ***“Mobil rabitə şəbəkəsi muxtar respublika üçün vacib sahədir. Çünki dayanıqlı rabitə və internet xidmətlərinin göstərilməsi insanlara rahatlıq gətirir. Həmçinin mobil rabitə şəbəkəsi muxtar respublikada əhalinin elektron xidmətlərə çıxışını yaxşılaşdıracaq, vaxt itkisinin və əlavə xərclərin qarşısını alacaq, ümumilikdə insanlara 20-dən artıq müxtəlif elektron xidmət göstəriləcəkdir”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasındakı ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslar Rabitə və Yeni Texnologiyalar Nazirliyinə hamiliyə verilmişdir. Ötən dövrdə nazirlik tərəfindən “Naxçıvan” Universitetində informasiya-kommunikasiya texnologiyaları mərkəzi yaradılmış, Naxçıvan Dövlət Universitetində daxili telekommunikasiya şəbəkəsi, simsiz internet sistemi, universitet televiziyası və radiosunun montaj-tənzimləmə işləri, təlim üçün avtomat telefon stansiyası, Texniki Kollecdə isə kompüter şəbəkəsi və 5 tədris sinfi qurulmuşdur.

Müasir texnologiyaların tətbiqi muxtar respublika ərazisində rəqəmsal radio-televiziya yayımının təşkilinə də əsaslı zəmin yaratmışdır. 2014-cü ilin dekabr ayından analoq televiziya yayımı dayandırılmış, 6 güclü və 44 azgüclü verici stansiya vasitəsilə muxtar respublika ərazisində rəqəmsal televiziya yayımına keçid təmin edilmişdir. Hazırda bütün yaşayış məntəqələrində 12 televiziya və 9 radionun rəqəmsal yayımı təmin edilmişdir. Bundan başqa, Duzdağ Radio-Televiziya Verici Stansiyasında qurulan baş stansiya, 7 ədəd güclü rəqəmsal televiziya vericisi vasitəsilə Cənubi Qafqazda ilk dəfə olaraq DVB-T2 standartında 67 televiziya kanalının yayımına başlanılmış, Naxçıvan Dövlət Televiziyasının yüksəkkeyfiyyətli HD formatda yayımı təmin edilmişdir.

Həyata keçirilən layihələrdə fəal iştirak edən rabitəçilərin əməyi dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilir. Bu gün Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi və onun tabeliyində olan qurumlarda çalışan işçilərdən 4-ü “Azərbaycan Respublikasının Əməkdar mühəndisi”, 2-si “Naxçıvan Muxtar Respublikasının Əməkdar mühəndisi”, 12-si “Tərəqqi” medalı, 2-si “Dövlət qulluğunda fərqlənməyə görə” medalı, 2 nəfər isə “Əməkdar dövlət qulluqçusu” fəxri adına layiq görülmüşdür.

*Muxtar respublikanın rabitə və yeni texnologiyalar sahəsinin işçiləri bundan sonra da qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirəcək, əhaliyə keyfiyyətli xidmət göstəriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# Nağdsız ödənişlərlə bağlı seminarlar davam etdirilir



***Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və muxtar respublika Vergilər Nazirliyinin təşkilatçılığı ilə “Naxçıvan” Universitetində nağdsız ödənişlərin əhəmiyyəti barədə maarifləndirici seminar keçirilib.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş “2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram”ın icrası çərçivəsində keçirilən seminarda universitetin müəllim və tələbələri iştirak ediblər.

Tədbiri universitetin İdarəetmə fakültəsinin dekanı, dosent Elbrus İsayev açaraq nağdsız ödənişlərin genişləndirilməsinin əhəmiyyətindən danışıb, vətəndaşların rahat şəkildə nağdsız ödəniş etmələri üçün yaradılmış müasir infrastrukturdan bəhs edib.

Seminarda Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin rəisi Tural Şirəlizadə çıxış edərək nağdsız ödənişlərin əhəmiyyətindən, nağdsız əməliyyatların həcmindəki artımı şərtləndirən amillərdən, bu sahənin inkişaf etdirilməsi istiqamətində aidiyyəti dövlət qurumları tərəfindən həyata keçirilən işlər, əldə olunan nəticələr, bu nəticələrin muxtar respublika iqtisadiyyatına verdiyi töhfələrdən danışıb. Şöbə rəisi bankların təklif etdiyi hazırkı elektron bank xidmətləri, bu xidmətlərin əldə olunması və istifadəsinin ictimai faydaları haqqında da seminar iştirakçılarına məlumat verib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Zahid Qənbərov “Nağdsız ödəniş üsullarının vergi daxilolmalarındakı artıma təsiri və iqtisadi səmərəliliyi” mövzusunda çıxış edib.

Bildirilib ki, nağdsız əməliyyatların genişləndirilməsi tədbirləri çərçivəsində 2016-cı ilin 1 noyabr tarixinə muxtar respublika ərazisində 549 ədədi Naxçıvan şəhərində, 632 ədədi rayon və kənd mərkəzlərində olmaqla, 1181 ədəd POS-terminal elektron qaydada qeydiyyatdan keçirilərək quraşdırılıb. 2014-cü ildən başlayaraq Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi tərəfindən nağdsız ödənişlərin həcminin artırılması məqsədilə hər 6 ayda bir “Nağdsız ödəyin, hədiyyə qazanın” adlı həvəsləndirici tədbir keçirilir. Bu həvəsləndirici tədbirlər çərçivəsində ötən dövr ərzində nağdsız hesablaşma üsullarından (POS-terminal, bankomat və internet resurslarından) istifadə edərək ödəniş aparmaqda fəallıq göstərən 842 vətəndaşa 55 min manat dəyərində hədiyyə təqdim olunub.

Tədbirdə internet üzərindən ödənişlərin aparılması, POS-terminallardan istifadə qaydaları, nağdsız ödənişlərin istehlakçılara verdiyi təhlükəsizlik, rahatlıq və vaxt itkisinin minimuma endirilməsi məsələlərindən də ətraflı bəhs edilib.

Çıxışlarda vurğulanıb ki, belə tədbirlərin keçirilməsi muxtar respublika əhalisində POS-terminallardan istifadəyə olan marağı daha da artırır, nağdsız hesablaşmaların artırılmasına və alıcılıq mədəniyyətinin daha da yüksəldilməsinə təkan verir, əhalinin və iqtisadi subyektlərin elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə təşviq edilməsində mühüm rol oynayır.

Sonra sorğu-anket vərəqələri paylanılıb və seminar iştirakçılarını maraqlandıran mövzularda müzakirələr olub.

Məlumat üçün bildirək ki, bu qəbildən tədbirlərin 2016-2017-ci tədris ili ərzində muxtar respublikada fəaliyyət göstərən 20-dən çox orta ixtisas və ümumtəhsil məktəblərində keçirilməsi nəzərdə tutulub. İlk tədbir Naxçıvan Dövlət Texniki Kollecində keçirilib.

**Xəbərlər şöbəsi**

## I-XI sinif şagirdləri arasında Mantu sınağına start verilib

***Muxtar respublika ərazisində uşaq və yeniyetmələr arasında başlanğıc və məhdud formalı vərəmin erkən aşkar olunub vaxtında müayinə və müalicəyə cəlb edilməsi üçün I-XI sinif şagirdləri arasında kütləvi tuberkulin diaqnostikası – Mantu sınağına start verilib.***

Bunun üçün əvvəlcədən zəruri təşkilati tədbirlər görülüb. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında muxtar respublikanın tibb müəssisələrində çalışan həkim-pediatr və vaksinatorlar üçün seminar-məşğələ keçirilib. Tədbirin təşkili üçün xəstəxana tərəfindən əvvəlcədən cədvəllər tərtib olunaraq məktəblərə göndərilib. Orta məktəblərdə çalışan tibb işçiləri xəstəxananın Poliklinika şöbəsinə dəvət olunub, tədbirlə əlaqədar onlara lazımi təlimatlar verilib, söhbətlər aparılıb. Eyni zamanda şəhər və rayon Gigiyena və Epidemiologiya mərkəzləri tərəfindən məsul şəxslərin iştirakı ilə seminar keçirilib, rayon mərkəzi xəstəxanaları, eləcə də Gigiyena və Epidemiologiya mərkəzləri tərəfindən xidmət ərazilərində Mantu sınağına cəlb ediləcək uşaqların siyahıları tərtib olunub. Ərazi prinsipi üzrə bir həkim və iki tibb işçisindən ibarət yaradılmış xüsusi briqadalar sınaq materialı ilə təchiz edilib.

Mantu sınağının ilk günü – dekabrın 5-də Naxçıvan şəhərinin 1, 2, 3, 4, 5 və 7 nömrəli tam orta məktəblərində 4 min nəfərdən çox şagird tuberkulin diaqnostikasına cəlb olunub. Sınağın nəticələri 72 saat keçdikdən sonra qiymətləndiriləcək və bu haqda Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinə, Ağciyər Xəstəlikləri Dispanserinə məlumat veriləcəkdir. Nəticələr qiymətləndirilərkən şübhəli və müsbət reaksiyalı uşaqlar Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserində dərin ftiziatr müayinəsinə, lazım gələrsə, müalicəyə cəlb olunacaqlar.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Ədəbi birliyin növbəti məşğələsində ilə yekun vurulub

***"Şərurun səsi" qəzetinin nəzdində fəaliyyət göstərən "Şərur" ədəbi birliyinin yola salmağa hazırlaşdığımız təqvim ilində son məşğələsi olub.***

Məşğələdə birliyin rəhbəri, şair-publisist İbrahim Yusifoğlu 2016-cı ildə görülən işlərdən, keçirilən tədbirlərdən danışıb, birlik üzvlərinin çap olunan əsərləri haqqında məlumat verib.

Qeyd olunub ki, bu il də "Şərur" ədəbi birliyinin məşğələləri hər ay keçirilib. İl ərzində birlik üzvlərinin bir neçə kitabı nəşr edilib, almanax və toplularda, müxtəlif qəzet və jurnallarda silsilə şeirləri, publisistik yazıları dərc olunub. Birliyə gənc yazarların cəlb edilməsi istiqamətində də tədbirlər davam etdirilib.

Birlik üzvlərinin yaradıcılıq məziyyətlərindən danışan İbrahim Yusifoğlu deyib ki, İlyas Fərəməzoğlu, Əziz Kərimoğlu, Siyafər Xələcli, Mehman Cəfərzadə, Yaşar Cəliloğlu, Qurban Məhərrəmoğlu, Qafar Alışarlı, Püstə Gülsevən, Elmira Rzayeva, Humay Nur, Süreyya Nəsib və başqaları bu il də məhsuldar işləyiblər.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar, yazıçı-publisist Hüseyn Əsgərov, şairlərdən Muxtar Qasımzadə, Əbülfəz Ülvi, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Əməkdar mədəniyyət işçisi Ünbülbanu Musayeva, "Şərurun səsi" qəzetinin redaktoru Elman Telmanoğlu və başqaları çıxış edərək birlik üzvlərinə bundan sonra da yaradıcılıq uğurları arzulayıblar.

Birlik üzvləri yaradıcılıq planlarından danışıblar, qələmə aldıqları şeirlərini müzakirə üçün təqdim ediblər.

## Veteranlarla gənclərin görüşü keçirilib

Sədərək Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Sədərək rayon təşkilatı tərəfindən Heydərabad qəsəbə tam orta məktəbində veteranlarla gənclərin görüşü keçirilib.

Tədbiri giriş sözü ilə açan rayon Gənclər və İdman İdarəsinin rəisi Etibar Əliyev bildirib ki, muxtar respublikamızda gənclərin vətənpərvərlik hisslərinin gücləndirilməsinə, onların tam bir vətənpərvər şəxsiyyət kimi formalaşdırılmasına xüsusi diqqət yetirilir.

Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Sədərək rayon təşkilatının sədri Teymur Quliyev, müharibə veteranlarından Cəlil Əliyev və Əsgər Bağırov qanlı-qadalı illərin yaddaşlarında yaşayan anları haqda danışaraq ordumuzun qüdrətlənməsi naminə görülən işlərin hər bir müharibə veteranı tərəfindən minnətdarlıqla qarşılandığını bildiriblər. Qeyd edilib ki, yüz illər boyu özlərinin çirkin əməllərini gah gizlin, gah da açıq şəkildə həyata keçirən erməni daşnaklarının 1988-ci ildə yenidən üzə çıxan əsassız torpaq iddiaları, bu iddiaların yaratdığı məlum hadisələr sərhəd kəndləri sakinlərinin sərhədçi ömrü yaşamaları ilə nəticələndi. Ata-baba əmanəti olan torpaqlarımızın qorunması, düşmən tapdağına çevrilməməsi üçün bütün Azərbaycan ayağa qalxdı, o ağır illərdə belə, yurd yerlərimiz qəhrəmanlıqla qorundu. "Torpaq – uğrunda ölən varsa, Vətəndir", – deyib səngərlərə atılaraq "Təki Vətən sağ olsun" amalı ilə ölümün gözünə dik baxdı eloğullarımız.

Sonda gəncləri maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

***Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası idmançılarının uğurları gündən-günə artmaqdadır. Federasiyanın idmançıları cari ildə ölkədaxili turnirlərlə yanaşı, beynəlxalq arenada da yarışlara qatılıblar. Qazanılan uğurların təməlində idmana və idmançılara göstərilən diqqət dayanır.***

## Cüdoçularımızın uğurları artır

İlin son ayında federasiya daha bir uğura imza atıb. Belə ki, 2-3 dekabr tarixlərində Sumqayıt şəhərində ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş cüdo üzrə V açıq respublika turniri keçirilib. Bu turnirdə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirməsi Abbas Məmmədov da mübarizə aparıb. İdmançımız 38 kiloqram çəki dərəcəsində tatami üzərinə çıxıb və turniri üçüncü pillədə başa vurub.

Abbas Məmmədova təşkilatçılar tərəfindən diplom və medal təqdim olunub.

## İdmançılar üçün seminarlar davam etdirilir

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının birgə təşkil etdikləri məşqçi-müəllimlər, idmançılar üçün seminarlar davam etdirilir.***



Növbəti seminar Hava və Ekstremal İdman Növləri Federasiyasının təşkilatçılığı ilə baş tutub. Dağ və ekstremal idman növləri üzrə seminarda Hava və Ekstremal İdman Növləri Federasiyasının sədr müavini Azər Məmmədov, Gənclər və İdman Nazirliyinin əməkdaşı Samir Oruclu bildiriblər ki, federasiya nazirliklə birgə belə tədbirləri mütəmadi olaraq təşkil edir. Seminarların təşkilində əsas məqsəd idmançıları bu növlə daha yaxından tanış etmək, onları maraqlandıran suallara aydınlıq gətirməkdir. Bu seminarlarda peşəkar məşqçilər iştirak edirlər.

Sonra çıxış edənlər bu növlərin muxtar respublikada geniş yayılması üçün görülən və görüləcək işlər barədə danışıblar.

Seminarda ekstremal idman növləri üzrə məşqçi-müəllim Babək İsgəndərov çıxış edib. O, nəzəri məlumatda idmançılara dağ yürüşünün yaranması tarixi və bu idman növünün texnikası barədə məlumat verib.

Dünən idmançılar təlim-məşqləri "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində praktik olaraq davam etdiriblər. Məşqçi-müəllim Babək İsgəndərovun rəhbərliyi altında idmançılara dağa dırmanma, dağdan enmə və qayaya dırmanma, həmçinin dağa dırmanarkən öncədən görüləcək tədbirlər haqqında məlumat verilib.

Qeyd edək ki, nəzəri və praktik təlim-məşqlərdə 60-a yaxın idmançı iştirak edib.

**✍ Ceyhun MƏMMƏDOV**

*Mütəxəssis sözü*

## Arıların qışlaması necə təşkil olunmalıdır?

***Muxtar respublikanın füsunkar təbiəti, iqlim şəraiti, təmiz havası və digər amillər regionumuzda arıçılığın da inkişafına geniş imkanlar açır. Aparılmış tədqiqatların nəticələrinə əsasən məlum olub ki, muxtar respublikamızda keyfiyyətli bal istehsal etmək üçün zəngin xammal var. Bu imkanlardan səmərəli istifadə edən arıçılar keyfiyyətli bal məhsulu yetişdirir, daxili bazara töhfələrini verirlər.***



Havaların soyuması ilə əlaqədar olaraq artıq arıçılıqda qışlama dövrü başlayıb. Bu dövrdə arıçılar nə etməlidirlər? Hansı tədbirlər həyata keçirilməlidir ki, arı ailələri qışdan salamat çıxsın və bol məhsul istehsalına nail olunsun?

Arıçılıq erkən yaz, beçəvermə, bal məhsulunun əldə olunması və qışlama dövrləri olmaqla, 4 mövsümü əhatə edir. Hər hansı bir dövrə aid olan tədbirlər yerinə yetirilmədikdə arıçı ondan sonrakı dövrlərdə müvəffəqiyyət qazana bilməz.

Arı ailələri qış dövrü özləri üçün yığdıqları bal və güləmlə qidalanırlar. Onlar qış salxımı yaradıqdan sonra çox qida sərf etmirlər. Qidanın daha çox sərf olunduğu vaxt erkən yazda nəsil artımına başladıqları dövrdür. Bu səbəbdən pətəkdən bal götürülərkən arıların qış ehtiyacları nəzərə alınaraq lazımi miqdarda balın yuvada saxlanması vacibdir. Naxçıvan Muxtar Respublikasının iqlim və florasının müxtəlif olduğunu nəzərə alaraq bölgələr üzrə yem ehtiyatının qış və yaz dövrü üçün dağlıq zonada 18-20 kiloqram, dağətəyi zonada 16-18 kiloqram, aran zonasında 14-16 kiloqram saxlanılması məsləhət görülür.

Qışlama üçün saxlanılan çərçivələrin hamısı dolu olmalıdır. Çərçivələrin üst hissəsi möhürlənmiş bal, aşağı hissəsi isə üzəri açıq bal və ya boş olan gözcüklərdən ibarət olmalıdır. Çünki arılar, əsasən, boş gözlər üzərində salxım qurur. Kiflənmiş, qıcqırmış və xarab olmuş bal qətiyyən qış yemi kimi pətəkdə saxlanılmamalıdır. Qış üçün saxlanılacaq olan 1-2 çərçivədə güləm olması erkən yaz dövründəki nəsil artımı fəaliyyətləri üçün mühüm əhəmiyyət daşıyır. Arıların qışlaması üçün çəmən və xüsusilə də dağ çəmənlərinin çiçəklərinin balı daha qiymətlidir.

Gənc arılarla qışlamaya girən arı ailəsi yaza da normal çıxır və güclü bir arı ailəsi inkişaf edərək bal mövsümünə gəlib çatır.

Bal götürdükdən sonra axırıncı yoxlamalar aparıldıqda arı ailələri qışlama vəziyyətinə gətirilir. Pətəyin içərisində arıların zəbt etmədiyi boş çərçivələr çıxarılır və yerinə bölmə taxtası qoyulur. Pətəkdən uçuş bacaları daraldılır. Pətəyin qapağının altına və bölmə taxtasından arxada qalan boşluğa nəmuducu materiallar doldurulur. Pətəyin içərisində artıq nəmin yığılmasının qarşısının alınması üçün uçuş bacası və havalandırma deşiyi açıq saxlanılmalıdır.

Qapalı yerdə qışlama zamanı bir neçə şərtə əməl olunmalıdır. Belə ki, arıxanaya giriş-çıxış az olmalı, pətəklər yerdən 25-30 santimetr yüksəklikdə yerləşdirilməli, üst-üstə ən çoxu 3 sıra pətək qoyulmalıdır. Eyni zamanda pətəklər düzülərkən ehtiyat analar olan arılar ortada, güclü ailələr isə alt və üst hissədə yerləşdirilməli, pətəklər divara çox yaxınlaşdırılmamalı, uçuş bacası gediş yolunun qabağında olmalıdır.

Bilmək lazımdır ki, qışlama yerində ev heyvanları saxlanılmamalı, uçuş bacası pəncərə toru ilə tutulmalı, havalandırma deşikləri açıq olmalı, qızdırıcılardan istifadə edilməməli və arılar qışlayan tikililərdə havanın temperaturu sabit saxlanılmalıdır. Temperaturun -2 dərəcədən +4 dərəcəyə qədər olması vacibdir. Həm də ona diqqət yetirilməlidir ki, arı saxlanılan yerdə rütubət normadan artıq olmasın. Rütubət normadan artıq olarsa, bal rütubəti özünə çəkir ki, bu da balın qıcqırmasına gətirib çıxarır. Qıcqırmış bal ilə qidalanan arılar xəstələnir, bu da arıların ölümü ilə nəticələnir.

Açıq havada qışlama zamanı küləkdən müdafiə mütləq nəzərə alınmalıdır. Belə ki, qışlama üçün Günəşin yaxşı əhatə etdiyi yer seçilməlidir. Açıq havada qışlama zamanı arıxananın ətrafı hasarlanmalıdır. Küləyin qarşısını almaq üçün arıxananın ətrafına sıx ağac əkilməlidir. Uçuş bacasının istiqamətini elə yerləşdirmək lazımdır ki, yağışın, qarın istiqaməti ilə üst-üstə düşməsin. Arıxananı küləkdən müdafiə etmək üçün hasarlamaq, ətrafına ağac əkmək mümkün olmadıqda pətəklərin ön divarlarına maili lövhələrin söykənməsi məsləhət görülür.

Arıçılıq təsərrüfatlarında hər 100 arı ailəsinə 10 ehtiyat ana arı ailəsi nəzərdə tutulur. Ehtiyat ana arı ailəsini qışlamaq üçün arakəsmə ilə təchiz edilmiş digər pətəyin yanına köçürmək olar. Elə etmək lazımdır ki, ehtiyat ana arı ailəsi ilə əsas pətəyin arıları bir tərəfdən digər tərəfə keçə bilməsin. Ehtiyat ana arı ailəsinə qulluq digər arılara olan qulluq kimidir. Qışlama zamanı 3-4 gündən bir pətəklərə baş çəkilməlidir. Uçuş bacasına nəzarət edilməli, ölmüş arılar və mum qırıntıları buradan təmizlənməlidir.

*Arıçıların bu tövsiyələrə əməl etmələri onların bol və keyfiyyətli məhsul istehsalında başlıca amillərdəndir. Təcrübəli arıçıların bu tövsiyələrə əməl etmələrinin nəticəsidir ki, onlar hər mövsümdə yüksək məhsuldarlığa nail olur, xeyli qazanc əldə edirlər.*

**Vaqif MƏMMƏDOV**
**"Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyinin sədri**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 926